Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Qlobal Bakı Forumu Azərbaycanda tolerant mühitlə bağlı dünyanın etiraf jesti kimi...

**Azərbaycanda tarixin ayrı-ayrı dönəmlərində tolerantlığın, millətlər, dinlərarası münasibətlərin yüksək səviyyədə inkişaf etdiyi məlumdur. Şərqlə Qərbin qovşağında yerləşən ölkəmizdə yazıb-yaradan klassiklər, şair və mütəfəkkirlər öz əsərlərində daim bu ali məfhumu, bəşəri münasibəti önə çəkib, vurğulayıb.**

Humanistlik, sülh, əmin-amanlıq duyğuları Azərbaycan klassiklərin əsərlərində çox dolğun şəkildə ifadə olunub.

Azarbaycandan zaman-zaman dünyaya sülh, təhlükəsiz yaşayış çağırışları edilir. Bütövlükdə, sülh, tolerantlıq, insana ehtiram, insan hüquqlarına hörmət və sair kimi uca duyğular Azərbaycanın dahi şairi Nizami Gəncəvi irsinin ana axarında dayanır.

Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-6-da "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunda təşkil edilən panellərdən biri "Yeni dövrdə: sülh, təhlükəsizlik və insan hüquqları" mövzusunda olub.

Qlobal Bakı Forumunun dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsinə nə kimi töhfələr verir?

**"Bu forum dünya üçün vacib olan məsələlərin müzakirəsinə imkan yaradır"**

"Qlobal Bakı Forumunda iştirakdan qürurlanıram. Bu forum dünya üçün vacib olan məsələlərin müzakirəsinə imkan yaradır". Bunu YUNESKO-nun xoşməramlı səfiri Marianna V.Vardinoyannis VIII Qlobal Bakı Forumu çərçivəsində "Sülh, təhlükəsizlik və insan haqları: Yeni erada" mövzusunda panel müzakirələri zaman deyib.Onun sözlərinə görə, təmsil etdiyi təşkilat insan hüquqlarının pozuntusu ilə bağlı olan məsələləri həll edir: "Hər bir insan cinsindən və irqindən asılı olmayaraq, hörmətə layiqdir. Sabitliyə, ədalətə çıxış təhsilə investisiyadan başlayır. Hər bir şəxsin cəmiyyətə, təhsilə əlçatanlığı olmalıdır".

Qeyd edək ki, Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri Tomas Baxın tapşırığı ilə foruma qatılan Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçin Forumda çıxış edərkən Prezident İlham Əliyevə xitabən "Zati-aliləri Prezident Əliyev, səmimi qonaqpərvərliyə görə və bizə ünvanladığınız xoş sözlərə görə təşəkkür edirəm. Mən, həmçinin Sizi təbrik edirəm. Sizin regionunuzda sülh bərqərar olunub" deyə bildirib.

**"VIII Qlobal Bakı Forumundan da dünyaya sülh dolu çağırışların səslənməsi..."**

AVCİYA-nın vitse-prezidenti, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, sayca 8-ci olan Qlobal Bakı Forumunun keçirilməsi çox mühüm hadisədir. O, vurğuladı ki, dünyanın 40-dan artıq ölkəsinin nümayəndələrinin təmsil olunduğu Qlobal Bakı Forumundan dünyaya humanistlik, sülh, birgəyaşayış çağırışları edilib. "Azərbaycanda keçirilən Qlobal Bakı Forumu COVID-19-dan sonrakı dünya" mövzusunda keçirilir. Bakıda keçirilən bu tədbir Azərbaycan dövlətinin bir daha beynəlxalq nüfuzunun, beynəlxalq imicinin artdığını göstərir. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra, xüsusən də 2003-cü ildən bəri beynəlxalq səviyyəli tədbirlərin sayı çoxalıb. Azərbaycanı başqa Qafqaz respublikaları ilə müqayisə etdikdə görərik ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin sayı da çoxdu, mövzusu da rəngarəngdir. Bu baxımdan, Azərbaycanın dahi şairi Nizami Gəncəvinin adını daşıyan mərkəzin keçirdiyi Forum da təqdirəlayiqdir. Nizaminin əsərlərində tolerantlıq, müxtəliflik və insansevərlik hissləri xüsusi sənətkarlıqla ifadə olunub. Dünya klassikləri arasında Nizami qədər sülhə, insanpərvərliyə, humanizmə dəyər verən, insanı yüksək qiymətləndirən şairlər, mütəfəkkirlər çox azdır.



Qlobal Bakı Forumunda səsləndirdilər ki, Nizami Gəncəvi dünya mədəni irsinin bir hissəsidir. Nizami Gəncəvinin Xəmsə əsərində yazdığı fikirlər BMT-nin də ideyalarına uyğundur.

8-ci Qlobal Bakı Forumundan da dünyaya sülh dolu çağırışların səslənməsi təsadüfi deyil. Çünki Azərbaycan sülhün, birgəyaşayışın, multikulturalizm və tolerantlığın mərkəzlərindən biridir".

**"Azərbaycanda millətlərarası münasibətlərin özü dünyaya bir örnəkdir"**

M.Zülfüqarlı qeyd etdi ki, Qlobal Bakı Forumunda çıxış edənlər də Azərbaycanın bölgədə və dünyada sülhün tərəfdarı olduğu və ortaya konkret nəticə qoyduğunu vurğulayıb. Onun sözlərinə görə, artıq dünya Azərbaycanı bir güc olaraq qəbul edir və bu cür tədbirlərin də Bakıda keçirilməsi adi hal alıb. "Azərbaycanda millətlərarası münasibətlərin özü dünyaya bir örnəkdir. Məsələ burasındadır ki, Qafqaz respublikaları arasında Azərbaycan qədər bu məsələyə önəm verən ölkə yoxdur. Qlobal Bakı Forumunun 8-ci dəfə geniş tərkibdə və saysız qonaqların, xarici nümayəndələrin iştirakı ilə keçirilməsi onu göstərir ki, Azərbaycan dünya üçün maraqlıdır və Azərbaycandan dünyaya çatdırılan mesaj qlobal əhəmiyyət daşıyır. Bu da Azərbaycanın tolerant bir ölkə kimi daha da beynəlxalq imicinin yüksəlməsinə səbəb olacaq. Bu forumdan dünyaya səslən mesajlar çox dəyərlidir".

M.Zülfüqarlı əlavə etdi ki, Qlobal Forum iştirakçıları bir daha Azərbaycanın haqqın, ədalətin, sülhün, əminamanlığın, birgəyaşayışın çarçısı və məkanı olduğunu əyani şəkildə gördü. M.Zülfüqarlının sözlərinə görə, tədbir iştirakçıları həmçinin təvavüzkar, işğalçı, mədəni irs düşməni, müharibə cinayətkarı Ermənistanın da mahiyyətini bir daha dərk etdilər. O hesab edir ki, bütün bunlar Azərbaycanın gələcəkdə Ermənistanın cəzalandırılması və hərbi və müharibə cinayətlərinə beynəlxalq hüquqi qiymət verilməsində mühüm rol oynayacaq.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**